AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ

**Ə M R**

№ 34

Bakı şəhəri "24" 04. 2018-ci il

**"Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan Səhiyyə Nazirliyinin vəzifəli şəxslərinin siyahısının təsdiq edilməsi barədə"**

"Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 03 may tarixli 1256 nömrəli Fərmanının 4-cü hissəsinin icrası məqsədilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin vəzifəli şəxslərinin Siyahısı" (bundan sonra – siyahı) təsdiq edilsin (əlavə olunur).
2. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, cari və növbəti illər üçün inzibati xətalar haqqında işlər üzrə protokol, qərar (qərardad) blanklarının miqdarına dair tələbatın hər il iyulun 1-dək Maliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, bu əmrin birinci hissəsi ilə təsdiq edilmiş Siyahının Səhiyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.
4. Ümumi şöbənin müdiri L.Əli-zadəyə tapşırılsın ki, bu əmrin birinci hissəsi ilə təsdiq edilmiş Siyahının Səhiyyə Nazirliyinin bütün struktur bölmələrinə və Siyahıda qeyd olunan müəssisələrə çatdırılmasını təmin etsin.
5. Əmrin icrasına nəzarət nazir müavini E.Ağayevə həvalə edilsin.

**Nazir** AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ ÜMUMİ ŞÖBƏ **Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
24.04. 2018-ci il tarixli 34 nömrəli
əmri ilə təsdiq edilmişdir

**Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin vəzifəli şəxslərinin Siyahısı**

Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra-Nazirlik) aşağıda göstərilən vəzifəli şəxsləri tərəfindən tərtib olunur:

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra-Məcəllə) 162, 163, 197.1, 197.2 və 562.1-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Nazirlik adından - səhiyyə naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, Tibbi yardımın təşkili şöbəsinin müdiri, onun müavini, Hüquq və daxili nəzarət sektorunun müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi, Bakı Şəhər Baş Səhiyyə İdarəsinin və Gəncə Şəhər Səhiyyə İdarəsinin rəisləri, onların müavinləri, Sumqayıt Şəhər Səhiyyə Şöbəsinin müdiri, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri, onun müavini.

2. Məcəllənin 221.2, 221.3, 221.5 (inzibati xətanın Nazirlik tərəfindən aşkar edildiyi halda), 413, 451 (dərman vasitələrinə münasibətdə) 221.1, 221.4, 221.8 və 221.9-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Nazirlik adından - səhiyyə naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, Hüquq və daxili nəzarət sektorunun müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi, Analitik Ekspertiza Mərkəzinin direktoru, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri, onun müavini.

3. Məcəllənin 221.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol dərman vasitələrinin dövlət qeydiyyatına münasibətdə Nazirlik adından - səhiyyə naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini.

4. Məcəllənin 449-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol inzibati xətanı aşkar etmiş Nazirlik adından - səhiyyə naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, Sanitariya-epidemioloji nəzarəti sektorunun müdiri, baş məsləhətçisi, Hüquq və daxili nəzarət sektorunun müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi, Bakı Şəhər Baş Səhiyyə İdarəsinin və Gəncə Şəhər Səhiyyə İdarəsinin rəisləri, onların müavinləri, Sumqayıt Şəhər Səhiyyə Şöbəsinin müdiri, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri, onun müavini.